Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

May 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

“

## Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim əsas prioritetdir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim əsas prioritetdir. Təbii ki, ənənəvi olaraq enerji sektoru bizim iqtisadiyyatda aparıcı sektor olub və bu, davam edəcəkdir. Xüsusilə biz indi Azərbaycan qazını ilk dəfə 2021-ci ilin yanvarından başlayaraq Avropa İttifaqı da daxil olmaqla müxtəlif məntəqələrə nəql edən Cənub Qaz Dəhlizinin tikintisini, 3500 kilometr uzunluğunda birləşdirilmiş çoxsaylı boru kəməri sistemini yekunlaşdırmışıq. Əlbəttə ki, bizim iqtisadiyyatın ənənəvi sahəsi olan neft sektorunun inkişaf etdirilməsi yerli məqsədlər və bir çox ölkələrin enerji təhlükəsizliyi üçün vacib rol oynamaqda davam edir.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 18 may tarixində Azərbaycan-Litva biznes forumun açılış mərasimindəki nitqindən**

2022 İXRAC İCMALI may

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ........ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ........ səh. 13

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ........ səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ........ səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ........ səh. 20

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ........ səh. 23

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-aprel ayları ərzində **11,8 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-aprel aylarında qeyri-neft sektoru üzrə ixrac **965,5 milyon ABŞ dolları** təşkil etmişdir

2022-ci ilin yanvar-aprel ayları ərzində Azərbaycanın ixracı **11,8 mlrd. ABŞ dolları**, qeyri-neft sektoru üzrə **965,5 mln. ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci il ilə müqayisədə **268,6 mln. ABŞ dolları** və ya **38,5% artıb**.

2022-ci ilin yanvar-aprel ayları ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 23,6% artaraq 162,6 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 9 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 90,6%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 53,3%, pambıq iplik ixracı 19,8%, pambıq lifi ixracı isə 6,8% artıb.

2022-ci ilin yanvar-aprel ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (102,5 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (68,2 milyon ABŞ dolları) ikinci,

tomat (pomidor) (58,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-aprel ayları ərzində Türkiyəyə 333,7 milyon ABŞ dolları, Rusiya Federasiyasına 191,7 milyon ABŞ dolları, Gürcüstana 61 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 51 milyon ABŞ dolları və ABŞ-a isə 39,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin aprel ayı üzrə ixrac 3,8 mlrd ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 22% təşkil etməklə 238,3 mln. ABŞ dolları olub. 2022-ci ilin aprel ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 6,2% artaraq 51,4 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 27,2% artaraq 186,9 milyon ABŞ dolları təşkil edib.

2022-ci ilin aprel ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (78,5 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Rusiya Federasiyası ikinci (42,3 milyon ABŞ dolları) və İsveçrə üçüncü (17,7 milyon ABŞ dolları) olub.

2022-ci ilin aprel ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (30,3 milyon ABŞ dolları) birinci, tomat (pomidor) (19,4 milyon ABŞ dolları) ikinci və qızıl (16,9 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-APREL AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2022 İXRAC İCMALI may

+38,5%

2021

696,9 mln

2022

965,5 mln



# 2022-Cİ İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN APREL AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)






# 2022-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN APREL AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 32 | 33,6 |
| Xurma | 29,7 | 31,9 |
| Alüminium plitələr | 29,3 | 19,2 |
| Emal olunmamış alüminium ərintiləri | 28,6 | 8,7 |
| Aşqarlanmamış alüminiumdan plitələr | 22,7 | 16,6 |
| Digər yağlar və məhsullar | 22,4 | 12 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 21,6 | 17,3 |
| 41 ALU Emal olunmamış aşqarlanmamış alüminium | 18,3 | 8,1 |
| $CO_2$ Tərkibində 0,25 kütlə %-dən az karbonlu düzbucaqlı polad yarımfabrikatlar | 15,4 | 6,2 |

# 2022-Cİ İLİN APREL AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI may

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 30,3 | 27,8 |
| Tomat (pomidor) | 19,4 | 21 |
| Qızıl | 16,9 | 21,2 |
| Karbamid | 15 | 0,2 |
| Metanol (metil spirti) | 13,6 | 0 |
| Polimerləşmədə əmələ gələn ilkin formalı digər maddələr | 10,2 | 0 |
| Alüminium ərintilərindən plitələr | 10 | 4,2 |
| Emal olunmamış alüminium ərintiləri | 9,5 | 2,5 |
| Meşə fındığı | 8,5 | 6,2 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-aprel ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “P-Aqro” MMC, “Aqrovest” MMC, “STP Alüminium” MMC, “Mors Trading” MMC, “ZR-78 Company” MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “Çinar Aqro” MMC, “Product Service” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Azəralüminium” MMC, “Socar Polymer” MMC, “Azərenerji” ATSC, Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “AzerGold” QSC, “Azəripək” MMC, “Azərbaycan Hava Yolları” QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, “Azərbaycan Dəmir Yolları” QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ
(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI may



# 2022-Cİ İLİN YANVAR-APREL AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI may




* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

* * «AzərGold» QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin yanvar-aprel aylarında "Azərkosmos" ASC 8,5 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-aprel aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 32 ölkəsinə **8,5 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 86 faizini təşkil edib. 2022-ci ilin aprel ayında isə "Azərkosmos" ASC dünyanın 31 ölkəsinə **2,3 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-aprel ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 2,2 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,7 milyon ABŞ dolları ilə Fransa, 1,5 milyon ABŞ dolları ilə Lüksemburq, 0,9 milyon ABŞ dolları ilə BƏƏ və 0,5 milyon ABŞ dolları ilə Pakistan qərarlaşıb.

2022 İXRAC İCMALI may

# 2022-Cİ İLİN YANVAR-APREL AYLARINDA "AZƏRKOSMOS" ASC 8,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 2,2 mln $ | Birləşmiş Krallıq |
| 1,7 mln $ | Fransa |
| 1,5 mln $ | Lüksemburq |
| 0,9 mln $ | BƏƏ |
| 0,5 mln $ | Pakistan |

yanvar-aprel

| 2021 | | 2022 |
|---|---|---|
| 16,9 mln $ | -50,3% | 8,5 mln $ |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin yanvar-aprel ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 686,3 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin aprel ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **136,6 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-aprel aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **686,3 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR
## (milyon manatla)

| | 2020 | 2021 | 2022* |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 231,7 mln | 341,7 mln | 686,3 mln |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 966 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin yanvar-aprel aylarında Azexport.az portalına **162,7 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin aprel ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə **30,1 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin aprel ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin tərkibində pambıq yağı, trufel göbələyi, pambıq çiyidi, duz, konservləşdirilmiş heyvan əti, buğda unu, qarğıdalı, fındıq, nar konsentratı, tibbi tənzif, kartof və s. məhsullar üstünlük təşkil edib. Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 30 aprel tarixinə kimi (64 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2,96 (2,966.7) milyard ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN APREL AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR





6

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin may ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 27,4 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2022-ci ilin may ayı ərzində **137 müraciət** daxil olub. Müvafiq dövr ərzində **239 ədəd sertifikat** (75 ədəd mənşə, 10 ədəd baytarlıq, 128 ədəd fitosanitar, 26 ədəd CİTES) təqdim edilib.

2022-ci ilin may ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **27,4 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidinin yağı, çaxır,nar şirəsi, dondurma məhsulu üçün vafli, pendir, tibbi zəli, yeşiklərdə fermentləşdirilmiş qara çay, yemlik kəpək, siqaret, qərənfil, heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, yun örtüyü olmayan ikilənmiş, mal-qara gönlərindən aşılanmış krast olunmuş dəri, iribuynuzlu heyvanın mədəsi, iribuynuzlu heyvanların emal olunmamış gönlərin kəsikləri, balıq kürüsü, polad boru, polad armatur yayması, torf, taxta palet, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, yeşiklərdə fermentləşdirilmiş qara çay,  meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Türkiyə, Rusiya, Çin,  Yaponiya, İraq, İran, Vyetnam, Gürcüstan, Qazaxıstan, İndoneziya, Almaniya, Rumıniya, Bolqarıstan, Oman, Türkmənistan, Sinqapur, İtaliya, Tacikistan, Yeni Zelandiya, İsrail, Oman, Latviya üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN MAY AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)





# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)



53,6% Fitosanitar sertifikatı

31,4% Mənşə sertifikatı

10,9% CİTES sertifikatı

4,2% Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat